# ƏMR

№ 14-2/3-1İ-31/2026

Bakı şəhəri 13 Mart 2026 -cı il

**“Korporativ Geyim və Peşəkar Görünüş Standartı”nın tətbiqi ilə bağlı məsələlər haqqında**

Azərbaycan Respublikası Dövlət Neft Şirkətində korporativ mədəniyyətin təkmilləşdirilməsi çərçivəsində “SOCAR-ın korporativ geyim forması qaydası”nın yenilənməsi zərurəti yaranmışdır.

“Korporativ Geyim və Peşəkar Görünüş Standartı”nın (bundan sonra – “Standart”) tətbiqində məqsəd SOCAR-ın korporativ imicinə töhfə vermək, peşəkarlıq və bərabərlik prinsiplərini qoruyan geyim və zahiri görünüş tələblərini formalaşdırmaq, şirkətdə vahid və sistemli yanaşmanı təmin etmək, habelə iş mühitində nizam-intizam, etimad və korporativ mədəniyyətin gücləndirilməsinə şərait yaratmaqdan ibarətdir.

SOCAR-ın əməkdaşlarının xarici görünüşündə işgüzar imicin formalaşdırılması və SOCAR Qrupda bu Standartın tətbiqi, inteqrasiyası və proseslərin səmərəli icrası məqsədilə

**əmr edirəm:**

1. Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin “Korporativ Geyim və Peşəkar Görünüş Standart”ı təsdiq edilsin.
2. Müəyyən edilsin ki, Standart üzrə:

2.1. “Məsul Qurum”un vəzifə və səlahiyyətlərini SOCAR-ın Baş ofisinin İnsan Kapitalı və İnkluzivlik (İKİ) seqmenti həyata keçirsin;

2.2. “Məsul Struktur Bölmə”nin vəzifə və səlahiyyətlərini SOCAR-ın Baş ofisi üzrə Təşkilati İnkişaf departamenti, SOCAR Qrupa daxil olan digər hüquqi şəxslər üzrə isə analoji funksiyaları yerinə yetirən struktur bölmələr həyata keçirsinlər.

3. SOCAR-ın strukturuna daxil olan qurumların rəhbərlərinə, nizamnamə kapitalında üstün iştirakla SOCAR-a birbaşa və ya dolayı məxsus olan və bağlanmış müqavilə əsasında SOCAR tərəfindən qərarları müəyyən edilən SOCAR-ın səhmdarı (payçısı) olduğu SOCAR Qrupa daxil olan hüquqi şəxslərin idarəetmə orqanlarında SOCAR-ı təmsil edən nümayəndələrinə tapşırılsın:

3.1. Standartın tənzimlədiyi məsələlər və onun tətbiqi üzrə bu əmrə və Standarta uyğun olaraq, daxili qərarların qəbul edilməsini təmin etsinlər;

3.2. Səlahiyyətləri çərçivəsində bu əmrin icrasından irəli gələn digər zəruri tədbirləri həyata keçirsinlər.

4. Əmrin icrasına nəzarət SOCAR-ın vitse-prezidenti Ziba Mustafayevaya həvalə edilsin.

5. SOCAR-ın Kommunikasiya seqmentinə (A.Hüseynova) tapşırılsın ki, Standartın Azərbaycan dilindəki elektron variantının SOCAR-ın rəsmi internet səhifəsində yerləşdirilməsini təmin etsin.

6. Müəyyən edilsin ki, bu əmrin qüvvəyə minmə tarixi elektron sənəd dövriyyəsi sistemində təsdiq olunduğu tarixdir.

**Prezident** **Rövşən Nəcəf**

Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti

# Korporativ Geyim və Peşəkar Görünüş Standartları

## 1. Giriş

Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin "Korporativ geyim və peşəkar görünüş standartları" (bundan sonra — "Standart" adlandırılacaq) SOCAR Qrupun tərkibinə daxil olan hüquqi şəxslərdə işçilərin iş yerində və iş görüşlərində, o cümlədən rəsmi iş tədbirlərində korporativ geyim və peşəkar zahiri görünüş standartlarının müəyyən edilməsi, tətbiqi və nəzarət edilməsi mexanizmlərini tənzimləyir.

## 2. Ümumi müddəalar

**2.1. Məqsəd:** Standartın məqsədi SOCAR-ın korporativ imicinə uyğunluq, təhlükəsizlik, peşəkarlıq və bərabərlik prinsiplərini qoruyan geyim və zahiri görünüş standartlarını formalaşdırmaq, bu standartların vahid şəkildə tətbiqini təmin etmək, habelə iş mühitində nizam-intizam, etimad və korporativ mədəniyyəti möhkəmləndirməkdir. Məsul Qurum Standart üzrə məqsədlərə çatılması, müvafiq mühit və mədəniyyətin yaradılması və qorunub-saxlanılması üzrə funksiyaları yerinə yetirir.

**2.2. Tətbiq sahəsi:** Bu Standart SOCAR Qrupa daxil olan hüquqi şəxslərdə çalışan əməkdaşlara şamil olunur.

Xaricdə yerləşən və SOCAR Qrupa daxil olan hüquqi şəxslərdə bu Standart həmin hüquqi şəxslərin fəaliyyət göstərdiyi yurisdiksiyanın icazə verdiyi çərçivədə və yerli mədəniyyətin tələbləri nəzərə alınmaqla tətbiq edilir.

## 3. Anlayışlar

**SOCAR:** Azərbaycan Respublikası Dövlət Neft Şirkəti.

**SOCAR Qrup/Şirkət:** (I) SOCAR, (II) onun strukturuna daxil olan müəssisələr, (III) nizamnamə kapitalında üstün iştirakla SOCAR-a birbaşa və ya dolayı məxsus olan və (IV) bağlanmış müqavilə əsasında SOCAR tərəfindən qərarları müəyyən edilən SOCAR-ın səhmdarı (payçısı) olduğu hüquqi şəxslər.

**Korporativ geyim forması:** SOCAR-ın imicinə uyğunluğu ifadə edən və peşəkar iş mühitinə uyğun korporativ geyim üslubudur.

**Məsul Qurum:** SOCAR-ın əmri ilə müəyyən olunur və Standartın tətbiqinə ümumi nəzarəti həyata keçirir.

**Məsul Struktur Bölmə:** SOCAR-ın əmri ilə müəyyən olunur və Standart üzrə müəyyən olunmuş vəzifələri həyata keçirən funksiyadır.

**4. Əməkdaşlıq və harmonizasiya –** Məsul Qurum tərəfindən öz səlahiyyətləri çərçivəsində SOCAR Qrupa daxil olan bütün hüquqi şəxslər arasında geyim tələbləri onların fəaliyyət göstərdikləri yurisdiksiyalar və mədəniyyətlər nəzərə alınmaqla, qarşılıqlı şəkildə uyğunlaşdırılmalı, vahid korporativ mədəniyyətin formalaşması üçün əməkdaşlıq və koordinasiya təmin edilməlidir.

## 5. Korporativ geyim formaları

Korporativ geyim formaları fəaliyyətin xarakteri və tədbirin səviyyəsinə uyğun olaraq aşağıdakı kateqoriyalara bölünür:

### 5.1. Peşəkar iş tərzi (Business Professional) - rəsmi görüşlər və yüksək səviyyəli tədbirlər üçün:

Bu hallarda istifadə olunur: Dövlət və ya beynəlxalq nümayəndə heyətləri ilə görüşlərdə; SOCAR-ın rəhbər vəzifəli şəxsləri ilə keçirilən rəsmi təqdimatlar və iclaslarda; İşgüzar səfərlər

çərçivəsində təşkil olunan rəsmi iş görüşlərində; Qrupa aid iclaslar və tədbirlərdə; Mətbuat konfransları və ictimai çıxışlarda.

**5.2. Gündəlik iş tərzi (Smart Casual) - gündəlik ofis fəaliyyəti üçün:**

Bu hallarda istifadə olunur: Gündəlik ofis işi; Daxili komanda görüşləri və iclaslarda; Müxtəlif müştəri və ya tərəfdaş görüşlərində; Komanda quruculuğu və qeyri-rəsmi daxili tədbirlərdə; Həftənin sonuncu iş günü — daha rahat elementlərlə.

**Qeyd:** Tətbiq olunan qanunvericiliyin, SOCAR-ın və SOCAR Qrupa aid hüquqi şəxslərin daxili normativ sənədləri iş yerində və digər sahələrdə xüsusi geyimlərin istifadə olunmasını tələb etdikdə, bu halda sözügedən tənzimləyici aktların tələblərinə uyğun olaraq, xüsusi geyimlərdən istifadə olunmalıdır.

**6. Korporativ geyim formasına dair ümumi tələblər:**

- İş yerində geyim **təmiz, səliqəli və peşəkar** olmalıdır.

- **Peşəkar iş tərzi üzrə geyim nümunələri**:

  - **Kişilər:** Klassik kostyum, köynək, qalstuk və qapalı ayaqqabı və s.
  - **Qadınlar:** Klassik kostyum (şalvar və ya qısa olmayan ətək), rəsmi don və qapalı ayaqqabı və s.

- **Gündəlik iş tərzi üzrə geyim nümunələri**:

  - **Kişilər:** Polo köynək, klassik kəsimli gündəlik şalvar, qapalı ayaqqabı (klassik və ya idman tipli) və s.
  - **Qadınlar:** Bluz və ya sadə köynək, şalvar və ya qısa olmayan ətək, qapalı ayaqqabı (klassik, idman və ya bağlanan səndəl tipli) və s.

- Ayaqqabılar iş mühitinə uyğun, təmiz və səliqəli olmalıdır. Ofis konseptli iş yerlərində yüksək səs çıxaran ayaqqabıların istifadəsi tövsiyə olunmur. İşçilər üçün ayaqqabı modelinə dair dəqiq məcburi tələblər müəyyən edilmir. Bununla belə, ayaqqabıların peşəkar xarici görünüş standartlarına uyğun olmaması və ya bu tələblərin təkrarlanan şəkildə pozulması halları aşkar edildikdə, işəgötürən tərəfindən müvafiq intizam tədbirləri tətbiq oluna bilər. Sahə və istehsalat mühitində fəaliyyət göstərən işçilər tərəfindən istifadə olunan ayaqqabılar mövcud təhlükəsizlik qaydalarına, texniki tələblərə və fərdi mühafizə vasitələri üzrə qüvvədə olan normativlərə tam uyğun olmalıdır.

- Geyimdə şəxsi, mədəni və dini inanc elementləri (hicab, baş örtüyü və s.) peşəkar çərçivədə, səliqəli formada və qarşılıqlı hörmət prinsipinə əsasən istifadə edilə bilər.

- Ətir və ya qoxulu kosmetik vasitələr ölçülü və neytral şəkildə istifadə olunmalı, digər əməkdaşlara narahatlıq yaratmamalıdır.

- Zərgərlik məmulatları və aksesuarlar sadə və diqqəti yayındırmayan şəkildə seçilməlidir.

- Sağlamlıq vəziyyəti ilə əlaqədar və eləcə də, fiziki məhdudiyyəti olan işçilərə Standartla müəyyən edilmiş korporativ geyim və peşəkar görünüş tələblərindən kənarlaşmasına icazə verilə bilər, bir şərtlə ki, sui-istifadə hallarına yol verilməsin və Məsul Struktur Bölmə tərəfindən belə hallarda Standartın məqsəd və tələblərinin aşkar pozulması faktları müəyyən edilməmiş olsun.

- Aşağıdakı geyimlərə yol verilmir:

- Bədən üzvlərini vurğulayan açıq və şəffaf materiallardan olan geyimlər;
- İstirahət zonalarına uyğun geyimlər (məsələn, şort, tərlik və s.);
- Geyimdə SOCAR-ın imici və prinsipləri ilə uzlaşmayan, qeyri-ciddi və ya diqqət yayındırıcı elementlərdən,ekstremal kəsimlərə və qeyri-standart formaya malik geyimlər (məsələn, yırtıq cinslər, dekolteli geyim, şüar, loqo, rəmz, parlaq rəng, kəskin çap və s.) ) istifadə edilməməlidir.

**7. Saç düzümü və üz görünüşünə dair tələblər**

Saçlar səliqəli tərzdə və peşəkar mühitə uyğun olmalıdır. Ekstremal saç düzümləri (standartdan kənar və ya gündəlik saç modelinə uyğun olmayan) və qeyri-standart rənglər tövsiyə edilmir. Şəxsi gigiyena və üz görünüşü iş mühitinə uyğun olmalıdır. Saç düzümü və üz görünüşünə dair qeyd olunan tələblərin xaricdə yerləşən və SOCAR Qrupa daxil olan hüquqi şəxslərdə çalışan işçilərə tətbiqi həmin ölkənin yerli mədəni xüsusiyyətləri və əmək qanunvericiliyi nəzərə alınmaqla, müvafiq hüquqi şəxsin rəhbərliyinin yazılı təsdiqi və daxili qaydalara inteqrasiyası əsasında həyata keçirilir.

**8. Standartın icrası və məsuliyyət**

**8.1. İntizam məsuliyyəti tədbirləri:**

**8.1.1.** Standartın əhəmiyyətli pozulmasına görə Standartda nəzərdə tutulan tədbirlər maarifləndirici xarakterli olmaqla, nizam-intizamı təmin etmək və SOCAR-da onun imicinə uyğun korporativ mədəniyyəti və görünüşü dəstəkləmək məqsədi daşıyır. Məsul Struktur Bölmənin vəzifəsi ilk növbədə SOCAR-da Standartın tələblərinə uyğun olaraq yaranmış aşkar və əhəmiyyətli pozuntunun təkrarlanmaması üçün səlahiyyətləri daxilində zəruri tədbirlərin görülməsidir.

**8.1.2.** İşçinin Standartın tələblərini açıq, heç bir tərəddüd doğurmayan və əhəmiyyətli şəkildə pozduğu hallarda, Məsul Struktur Bölmənin konkret hallarla bağlı ona müvafiq qaydada xəbərdarlığına baxmayaraq, bu Standartda nəzərdə tutulduğu formada sistematik pozduğu halda qanunvericiliyə və SOCAR-ın daxili normativ sənədlərinə uyğun tədbirlərin görülməsi məqsədilə Məsul Struktur Bölmə tərəfindən işəgötürənə təklif verilə bilər.

**8.1.3.** Bu Standartın 8.1-ci bəndində nəzərdə tutulan intizam tədbirləri “yüngüldən ağıra” prinsipi ilə tətbiq olunur.

**8.1.4.** Bu Standartın pozulması hallarında işçiyə aşağıdakı intizam məsuliyyəti tədbirləri ardıcıllıqla tətbiq olunur və SOCAR Qrupa daxil olan hüquqi şəxslər tərəfindən qeydə alınır:

**8.1.4.1.** Şifahi xəbərdarlıq;

**8.1.4.2.** Yazılı xəbərdarlıq.

**8.1.5.** Azərbaycan Respublikasının Əmək Məcəlləsində nəzərdə tutulan intizam tənbehlərinin birbaşa tətbiqi bu Standartın 5.1-ci bəndində təsbit olunmuş tələblərin pozulması hallarında SOCAR Qrupa daxil olan hüquqi şəxs tərəfindən baxıla bilər.

**8.2. Rəhbərlərin rolu:** Xətti rəhbərlər bu Standartın tələbləri barədə əməkdaşlar tərəfindən düzgün başa düşülməsi üçün vaxtaşırı maarifləndirmə tədbirləri keçirməlidirlər.